ALTINCI TÜRKÇÜLÜK ÇALIŞMALARI:

MİLLİ SİMVOLLAR VƏ DƏYƏRLƏR

SALMAN MÜMTAZ YAYIMLARI

Yayımlayıcı: Zaur Həsənzadə
Redaktor: Prof. Nəsib L. Nəsibli
Korrektor: Sayalı Həsənzadə
Səhifələyici: Aytən Hüseynova
Qapaq dizaynı: Tamerlan İsmayılzadə

Altıncı Türkçülük Çalışmaları: Milli Simvollar və Dəyərlər,
red. Nəsib L. Nəsibli.
Bakı: "Salman Mümtaz Yayımları", 2026. 340 s.

ISBN 978-9952-8526-7-7

Tel.: (+994 55) 430 89 71
web: www.mumtaz.az
mail: info@mumtaz.az
facebook: Mümtaz Yayımları
instagram: mumtazyayimlari

Bu kitabda ifadə olunan fikirlər məqalə müəlliflərinə məxsusdur
və nəşriyyatın rəsmi mövqeyini əks etdirmir.

Kitab:0017
Basılma tarixi: 01.09.2026

© Salman Mümtaz, 2026

Türkçü düşüncə qurbanlarının əziz xatirəsinə

İÇİNDƏKİLƏR

Ön Söz,
Prof. Nəsib L. Nəsibli 7
Simvolik Sistemlər Fəlsəfəsi
Uğurlu Şərifov 13
Milli Simvol Olaraq Türk Damğaları
Dr. Odər Qutluər 47
Milli Simvolların Rəqəmsal Rekonstruksiyası: Xalça Motivləri və Sarı Qız Örnəyində
Dos. Aynur Qəzənfərqızı 63
İranda Türk Simvollarına Qarşı Təzyiqlər
Sasanian Xanoğlu Həbib Yakamoz 77
Türk Milli Dəyərləri və Müraciət Formaları
Hamlet İsaxanlı 91
Adlarımız, Soyadlarımız və Soyad Sonluqlarımız
Dr. Aydın Mədət oğlu Qasımlı 105
Türk Mədəniyyətində Simvollar
Dr. Limunət Əmrahlı 129
Adlar və Kimlik: Güney Azərbaycanda Türk Kimliyini Qorumaqda Türk Adlarının Rolu
Ayşin Musəvi 139
Milli Həyatda Simvolların Yeri
Prof. Nəsib L. Nəsibli 151

Milli Simvollar Millətin İnsanlıq Tarixindəki Məxsusi Ləpirləridir

Prof. Adil Qeybulla 173

Türkiye'de Soyadı Kanunu ve Türk Uluslaşmasındaki Yeri

Prof. Dr. Abdullah Gündoğdu 181

Milli Dəyərlərimizə Yanaşma Necə Olmalıdır?

Şapur Qasimi..... 195

Qaval

Kaya Kərimoğlu..... 203

SSRİ-də 1970-1980-ci illərdə Gənc Türk Vətənpərvəri/ Millətçisinin Xatirələri

Çingiz Sultansoy 213

Milletleşme Sürecinde Millî Sembollerin Yeniden Üretimi: Güney Azerbaycan'da Traxtor Futbol Kulübü Örneği

Dr. İbrahim Aras Korhan..... 235

Ritualların Millətçiliyə Təsiri: Sərhədlərin Qurulması və Açılması

Dr. Ramin Cabbarlı 281

Milli Simvolların Rəqəmsal Rekonstruksiyası: Xalça Motivləri və Sarı Qız Örnəyində

Dos. Aynur Qəzənfərqızı[1]

Giriş

Son illərdə rəqəmsal texnologiyaların sürətli inkişafı və rəqəmsal humanitar elmlərin (*Digital Humanities*) fənlərarası bir sahə kimi formalaşması mədəni irsin qorunması, tədqiqi və təqdim olunma formalarını köklü şəkildə dəyişdirmişdir. Müasir dövrdə mədəniyyət elementlərinin sadəcə arxivləşdirilməsi və ya statik rəqəmsal surətlərinin çıxarılması (skan edilməsi) prosesi öz yerini metavers, virtual reallıq (*VR*), artırılmış reallıq (*AR*) və qrafik oyun mühitləri vasitəsilə icra olunan dinamik bərpa proseslərinə verir.[2]

Bu yeni texnoloji müstəvidə qarşımıza çıxan ən aktual elmi anlayışlardan biri *rəqəmsal rekonstruksiya*dır. Rəqəmsal rekonstruksiya – milli-mədəni simvolların, maddi və qeyri-maddi irs nümunələrinin süni intellekt və üçölçülü modelləşdirmə alətləri ilə virtual mühitdə yenidən qurulması prosesidir. Hətta yaradıcı süni intellekt vasitəsilə

[1] Xəzər Universiteti Dillər və Ədəbiyyatlar Departamentinim müəllimi, MAFİ koordinatoru, *aynurqezenferqizi@yahoo.com*

[2] B.Kye, N. Han, E. Kim, Y. Park & S. Jo, Educational Applications of Metaverse: Possibilities and Limitations, *Journal of Educational Evaluation for Health Professions*, 2021, 18, pp. 1-13. *https://doi.org/10.3352/jeehp.2021.18.32*

interaktiv hekayəçilik modellərinin formalaşması ənənəvi mədəni narrativlərin rəqəmsal mühitdə yeni reallıq kimi yenidən yazılması imkanlarını ortaya qoyur.[3]

Lakin bu proses sadəcə texniki bir köçürmə, formanın bir mühitdən digərinə kodlaşdırılması və ya mexaniki arxivləşdirmə kimi qəbul edilməməlidir. Virtual mühitə daşınan, 3D modellərə və ya avatar dizaynlarına çevrilən hər bir milli simvol öz tarixi-mədəni kontekstindən ayrılaraq tamamilə fərqli bir ontoloji (varlıq) status qazanır. Burada ənənəvi mədəniyyətin statik daşıyıcıları ilə rəqəmsal mühitin dinamik, interaktiv və sürətli istehlaka əsaslanan strukturu arasında təbii bir gərginlik yaranır. Milli simvollar rəqəmsal platformalarda qlobal auditoriyaya açılmaq və vizual olaraq ölməzlik qazanmaq şansı əldə etsə də, eyni zamanda ciddi bir məna aşınması, funksiya dəyişikliyi və forma sadələşməsi təhlükəsi ilə üz-üzə qalır[4]. Bu vəziyyət simvolların yeni mədəni kontekstlərdə qaçılmaz olaraq yenidən interpretasiyasına (*reinterpretasiya*) səbəb olur.

Bu tədqiqatın aktuallığı da məhz rəqəmsal humanitar elmlərin bu kritik nöqtəsində – texnoloji imkanlar ilə semantik qorunma arasındakı balansın tapılması zərurətində ortaya çıxır. Məqalədə Azərbaycan xalçaçılıq sənətinin çoxqatlı ornament sistemi (Buta, Qoçbuynuzu, Həyat ağacı motivləri) və Tenqrizm inancının daşıyıcısı olan Sarı qız obrazı nümunəsində milli kodların virtual mühitdəki transformasiya mexanizmləri, semantik transformasiyalar və

[3] R. Aylett, et al. Language as Reality: A Co-Creative Storytelling Game Experience in 1001 Nights Using Generative AI, 2023, *arXiv preprint arXiv:2308.12915*.

[4] H. Jenkins, *Convergence Culture: Where Old and New Media Collide,* New York: New York University Press, 2006.

reduksiya (sadələşmə) meylləri, eləcə də qazanılan yeni funksiyalar metodoloji müstəvidə tənqidi şəkildə təhlil edilir.

Xalça motivlərinin rəqəmsal rekonstruksiyası

Azərbaycan xalça motivləri milli mədəniyyətin ən zəngin və çoxqatlı simvol sistemlərindən biridir. Bu motivlər yalnız dekorativ element kimi deyil, eyni zamanda dərin semantik məna daşıyan mədəni kodlar kimi çıxış edir. Ənənəvi, real mühitdə xalça motivləri müəyyən ideyaları və inancları ifadə edir. Sənət tarixinin fundamental prinsiplərinə görə, bu vizual elementlər ötürülən mədəni mesajların daşıyıcılarıdır.[5] Məsələn, bəzi ornamentlər qoruyucu funksiyanı simvolizə edir, digərləri bolluq, həyat və davamlılıq kimi anlayışlarla bağlıdır. Bundan əlavə, bu motivlər regional xüsusiyyətlərə malikdir və müxtəlif coğrafi ərazilərə görə fərqlənən mədəni kimliyi əks etdirir.[6] Rəqəmsal binarlaşdırma prosesində regional xalça məktəblərinin (Quba, Şirvan, Təbriz, Qarabağ) özünəməxsus kompozisiya fərqləri bəzən unifikasiyaya məruz qalır. Halbuki, xalça elementlərinin lokal semantik interpretasiyası və regional toxunuş spesifikası xalçanın təkcə bədii deyil, həm də mifik-coğrafi pasportudur.[7]

Lakin rəqəmsal mühitə keçid zamanı bu motivlər yeni funksional və estetik çərçivəyə daxil olur. Onlar oyun mühitlərində, virtual reallıq platformalarında və metaversdə

[5] E. H.Gombrich, *The Story of Art*, London: Phaidon Press, 2006.

[6] A. Reza, *Azerbaijani Carpet Art and Symbolism*, Baku: Elm Publishing, 2015, p.112.

[7] S.Azadi, L. Kerimov & W. Zollinger, *Azerbaijani-Caucasian Rugs*. Ulm: S. Azadi, 1984.

əsasən tekstura və vizual dizayn elementi kimi istifadə edilir. Lev Manoviçin[8] irəli *sürdüyü verilənlər bazası (database) məntiqi* rəqəmsal mühitdə narrativin sıradan çıxmasını stimullaşdırır. Ənənəvi xalçada naxışlar məlumat ötürmək və müəyyən simvolik mesajlar vermək (hekayə nəql etmək) funksiyası daşıdığı halda, rəqəmsal rekonstruksiyada onlar yalnız vizual həzz vermək üçün istifadə olunan bir vasitəyə çevrilir.[9] Bu proses Ernst Qombrixin[10] diqqət çəkdiyi simvolların *sadə vizual formaya endirilməsi* probleminin birbaşa təzahürüdür. Rəqəmsal rekonstruksiya zamanı motivlərin vizual morfologiyası (forması) qorunsa da, ontoloji mahiyyəti mutasiyaya uğrayır. Azərbaycan xalça sənətindəki motivlərin rəqəmsal mühitə adaptasiyası zamanı baş verən bu prosesi konkret naxışlar üzərindən aşağıdakı kimi sistemləşdirmək mümkündür:

1. *Buta motivi: Kosmoqonik simvoldan vizual bəzəyə və rəqəmsal nizam təhlükəsi*



Şəkil 1

Ənənəvi mənada buta Azərbaycan mədəniyyətində odu, günəşi, sonsuzluğu və kainatın rüşeymini təmsil edən fəlsəfi bir koddur. Regional xalçaçılıq məktəblərində (Quba, Şirvan, Gəncə) onun fərqli formaları (*Hamilə buta*, *Cığalı buta*) həyatın müəyyən mərhələlərini ifadə edir.[11]

[8] L.Manovich, *The Language of New Media*. Cambridge: MIT Press, 2001.

[9] İbid, p. 89.

[10] E. H. Gombrich, *The Sense of Order: A Study in the Psychology of Decorative Art,* London: Phaidon Press, 1979, p. 91.

[11] L. Kərimov, *Azərbaycan xalçası,* cild 2-3, Bakı: Elm, 1983.

Rəqəmsal rekonstruksiya və qrafik dizaynda isə buta çox vaxt fəlsəfi inanc sistemindən təcrid olunaraq Şərq ekzotikasını vurğulayan minimalist bir tekstura elementinə çevrilir.



Şəkil 2

Kritik metodoloji problem: Rəqəmsal mühitdə kompozisiyanı həndəsi nizama salmaq məqsədilə xalçanın orijinal strukturundakı asimmetrik və mürəkkəb heyvan/bitki kombinasiyaları vizual *küy* kimi qəbul edilərək təmizlənir. Lakin rəqəmsal humanitar elmlərin (*Digital Humanities*) və rəqəmsal qorumanın (*digital preservation*) təməl prinsiplərinə görə, əsərin və ya toxucunun gətirdiyi bu *asimmetriya* və *xaotiklik* xalçanın qüsuru deyil, onun orijinallıq, insan amili və unikal bədii kodudur. Rəqəmsal rekonstruksiya zamanı həndəsi incəliyin və piksel dəqiqliyinin təmin edilməsi məqsədilə motivlərin eyni ölçü, forma və kəskin kontur xətlərinə tabe edilməsi, zamanla yaranmış təbii deformasiyaların aradan qaldırılması prosesi əslində simvolun ontoloji mahiyyətinin mutasiyası ilə nəticələnir. Bu piksel dəqiqliyi xalçanın unikal bədii toxuma fərdiliyini qlobal dizayn standartlarının monoton nizamı ilə əvəzləyərək milli kodu rəqəmsal deformasiyaya uğradır. Şəkil 1 və Şəkil 2 diqqətlə təhlil edildikdə naxışların düzülüşü dediklərimizi daha anlaşıqlı edəcək.



Şəkil 3

2. Qoçbuynuzu motivi üzərində rəqəmsal reduksiya mexanizmləri

Şirvan/Quba qrupuna aid ənənəvi *Məlhəm* və ya *Xan qorxu* tipli xalça kompozisi-


yalarının rəqəmsal mühitə adaptasiyası zamanı totemik mühafizə və güc rəmzi olan *Qoçbuynuzu* naxışlarının həndəsi nizamı piksel dəqiqliyi ilə yenidən qurulur. Şəkil 3 ilə Şəkil 4 arasındakı naxışların fərqli düzüldüyü açıq görünür. Ənənəvi kontekstdə kişinin başlanğıcını, totemistik mühafizəni və bərəkəti təmsil edən, dağlıq rayonların xalçalarında ailəni qoruyan bir amulet funksiyasını daşıyan bu motiv rəqəmsal mühitdə ciddi bir semantik aşınmaya məruz qalır.



Şəkil 4

Bərpa prosesində mərkəzi medalyonların (*göllərin*) kənarlarını əhatə edən, orijinal toxumada deformasiyaya uğramış stilizə olunmuş *qoçbuynuzu* elementləri vizual olaraq kəskinləşdirilir və dörd bir tərəfə açılan qarmaqlı strukturlar mütləq bir simmetriyaya gətirilir. Rəqəmsal mühitin gətirdiyi bu riyazi nizam və daxili rəng keçidlərinin kəskin xətlərlə ayrılması motivin daşıdığı ritual-totemik semantikanı arxa plana keçirərək onu yalnız vizual balans yaratmaq üçün istifadə olunan minimalist bir həndəsi ornament səviyyəsinə endirir.

3. Həyat ağacı (Şəcərə) motivi: Tenqrizmdən dekorativ arxa plana



Şəkil 5

Üç dünyanı (yeraltı, yerüstü və səma) birləşdirən mifik kainat xəritəsi olan *Həyat ağacı* motivi metavers platformalarında və ya oyun dizaynında sadəcə ekran dekorasiyası (*environment design*) rolunu oynayır.

Rəqəmsal bərpa zamanı mifik semantikada torpağı və sabitliyi simvolizə edən

təbii qəhvəyi/palıd tonları ağacların gövdə və budaq sistemində bərpa olunsa da, motivin daşıdığı tenqrist fəlsəfi semantika reduksiyaya uğrayır.

Orijinal təsvirdəki (bax: Şəkil-5) bədii xaotikliyi və mistik mətni ifadə edən həndəsi kəsiklər rəqəmsal hamarlama metodları ilə aradan qaldırıldıqda gövdələrə vizual bir təbii bərklik verilir, lakin bu mükəmməl nizam elementin sakral mahiyyətini buxarlandırır. Bolluq və bərəkət rəmzi olan nar meyvələrinin rəqəmsal mühitdə daha aydın və kəskin qırmızı tonlarla detallandırılması kompozisiyaya vizual cəlbedicilik qazandırsa da, mürəkkəb quruluşlu elementlərin texnoloji nizama tabe edilməsi onun çoxqatlı mifik mətnini sadəcə estetik bir ağac təsvirinə çevirmək riski daşıyır. Bunu Şəkil-6 açıq göstərir.



Şəkil 6

Xalça Motivlərinin Korporativ Brendinq və Loqo Dizaynına Reduksiyası

Mürəkkəb mifik-fəlsəfi semantikaya malik olan *Buta* və ya *Həyat ağacı* kimi milli ornamentlərin rəqəmsal məkanın tələblərinə uyğun olaraq qrafik loqotip, korporativ kimlik və mobil tətbiq ikonalarına (*interface icons*) çevrilməsi müasir vizual mədəniyyətdə ciddi bir morfoloji sadələşmə meyli yaradır. Bu prosesin ən bariz tətbiqi nümunəsi kimi müasir turizm tətbiqlərində, dövlət və özəl sektor brendinq layihələrində *Buta* motivinin geniş şəkildə istifadə olunmasını göstərmək olar.

Bu növ rəqəmsal platformalarda və loqo arxitekturasında tətbiq edilən *Buta* artıq fəlsəfi inanc sisteminə bağlı olan odun, günəşin və ya kosmoqonik başlanğıcın rəmzi kimi çıxış etmir. O, rəqəmsal mühitdə sadəcə məhsulun və ya xidmətin *Azərbaycan mənşəli* olduğunu vizual olaraq təsdiqləyən, coğrafi aidiyyəti vurğulayan dekorativ etiket və ya vizual marker funksiyasını daşıyır.

Bu qrafik transformasiya zamanı motivlərin vizual morfologiyası (xarici forması və silueti) istifadəçi tərəfindən dərhal tanınması üçün qorunub saxlanılsa da, onun əsrlər boyu daşıdığı çoxqatlı sakral mətni və ontoloji mahiyyəti (varlıq mənası) köklü şəkildə dəyişir. Mürəkkəb toxuma strukturlarının piksellərə və vektor xətlərinə enməsi milli kodların funksional baxımdan yalnız sürətli istehlaka xidmət edən səthi dizayn elementinə çevrilməsi ilə nəticələnir. Rəqəmsal mühit mifik-estetik yaddaşı interpretasiya edərkən çox vaxt qaçılmaz bir xəttiliyə və rəqəmsal hamarlaşdırmaya (*digital smoothing*) yol verir. Bu kontekstdə vizual mədəniyyətin rəqəmsallaşdırılması xalça üzərindəki ritual-mifik hekayəni sındıraraq onu sadəcə bir elementə, yəni manipulyasiya edilə bilən obyektə çevirir.

Lev Manoviçin qeyd etdiyi kimi, yeni media mühitində formal kulturoloji narrativlər artıq öz yerini verilənlər bazası məntiqinə (*database logic*) verməli olur; burada hər bir mədəni kod sərbəst hərəkət edən, hekayəsindən qopardılmış vizual məlumat vahidinə çevrilir.[12] Nəticədə xalçanın mifik kosmosu rəqəmsal bazanın elementar strukturuna tabe etdi-

[12] L. Manovich, *Software Takes Command*, London: Bloomsbury Academic, 2013, p.112.

rilir. Bu tənqidi çərçivədən çıxış edərək rəqəmsal mühitdə xalça motivlərinin həm vizual simplifikasiyasını (sadələşdirilməsini), həm də semantik itkilərini sistemli şəkildə izləmək üçün aşağıdakı metodoloji matrisi tərtib etdik:

Xüsusiyyət	Ənənəvi Xalça Muhiti	Rəqəmsal Rekonstruksiya (Metavers)
Ontoloji Statusu	Sakral / Müqəddəs mədəni kod	Estetik obyekt / Rəqəmsal vizual element
Funksional Mövqeyi	Narrativ (Məlumat və ritual mesaj ötürmə)	Dizayn (Vizual həzz və interaktiv kontent)
Qavrayış Rejimi	Kollektiv inanc və ritual mərkəzli	Sürətli istehlak və dekorativ funksionallıq

Cədvəl 1. Azərbaycan xalça motivlərinin mühit transformasiyası

Qeyd: Cədvəl 1 müəllif tərəfindən E.Qombriç və L.Manoviçin (1979) nəzəri konsepsiyaları əsasında tərtib edilmişdir.

Azərbaycan xalça motivlərinin rəqəmsal mühitdəki bu transformasiyası birbaşa Lev Manovichin nəzəriyyəsi ilə bağlıdır. Belə ki, motivlərin ilkin mənası çox vaxt arxa plana keçir və onlar daha çox vizual cəlbedicilik baxımından, yəni bir dizayn elementi kimi dəyərləndirilir. Bu proses elmi olaraq aşağıdakı məqamlarla əsaslandırılır:

Verilənlər bazası məntiqi: Rəqəmsal mühitdə xalça motivləri öz ilkin mənasını qismən itirir. Bu prosesdə ənənəvi naxışların hekayə ötürmək funksiyası zəifləyir və onlar sadəcə vizual bir dizayn elementinə çevrilir.

Hekayənin itməsi: Ənənəvi xalçada naxışlar məlumat ötürmək və müəyyən mesajlar vermək funksiyası daşıdığı halda, rəqəmsal rekonstruksiyada onlar yalnız vizual həzz vermək üçün istifadə olunan bir vasitəyə çevrilir. Bu proses rəqəmsal medianın mədəni kodları vizual dizayn elementinə çevirməsi kimi izah olunur.[13]

Sarı Qız Obrazının Mifik-Məkan Strukturunun Rəqəmsal Transformasiyası



Şəkil 7

Sarı qız Azərbaycan folklorunda və mifik təfəkküründə təbiətlə sıx bağlı olan, kollektiv yaddaşda xüsusi yer tutan sakral bir mifik arxetipdir.[14] Lakin bu obrazın mahiyyəti sadəcə ekoloji harmoniya və birtərəfli *təbiət qoruyuculuğu* ilə məhdudlaşmır. Türk-Azərbaycan mifologiyasındakı *Sarı* rəng kodunun semantikasına və sakral tabular sisteminə diqqət yetirdikdə, *Sarı qız* obrazının dərin bir ambivalentlik (həm xeyir, həm şər xüsusiyyətlərini eyni vaxtda daşıma) nümayiş etdirdiyi görünür. O, müəyyən məkan kontekstlərində (dağlar, gizli su mənbələri, meşə zonaları) həm bərəkət verən bir əyə (ruh), həm də zahiri gözəlliyi

[13] L. Manovich, *The Language of New Media,* p.89.

[14] F.Bayramlı, *Azərbaycan mifoloji təfəkküründün coğrafiyası*, Bakı: Elm, 2012; N.Yunusova, *Türk-Azərbaycan folklorunda mifoloji obrazlar*, Bakı: Nurlan, 2016.

ilə insanı bəlalara sürükləyən, qorxu və tabu yaradan bir varlıq, bəzi hallarda isə *Al arvadı* mifi ilə funksional kəsişmələri olan sakral bir fenomendir.

Kritik Metodoloji Problem: Bu obrazın metavers mühitində virtual reallıq platformalarına və qrafik oyun mühitlərinə adaptasiyası zamanı ciddi bir semantik daralma və reduksiya meyli ortaya çıxır. Qlobal oyun sənayesinin *fantasy* estetikasına (məsələn, zərərsiz meşə pərisi, sehrbaz qız və ya Qərb mifologiyasındakı nimfa tipajlarına) uyğunlaşdırılaraq qeyri-oyun personajına (*NPC*) və ya istifadəçi avatarına çevrilən *Sarı qız* özünün sakral qorxu yaradan tabu xarakterini və çoxqatlı mifik dərinliyini tamamilə itirir.

Rəqəmsal platformalarda obrazın vizual morfologiyası müasir populyar estetik standartlara (ideallaşdırılmış uzun parlaq saçlar, korreksiya olunmuş bədən formaları, qlobal media qəliblərinə uyğun vizual geyimlər) tabe edilir. Bu texnoloji hamarlama nəticəsində obraz vizual olaraq qlobal auditoriya üçün cəlbedici və anlaşılan kontent obyektinə çevrilsə də, onun mifik-fəlsəfi kökləri səthiləşir. Mədəniyyət sənayesində[15] irsin bazar məhsuluna çevrilməsi və oyunlaşdırma (*gamification*) prosesi[16] nəticəsində *Sarı qız*ın kollektiv yaddaşdakı simvolik ağırlığı zəifləyir; o, tenqrist təfəkkürün ambivalent və sirli varlığı statusundan çıxarılaraq yalnız interaksiyada olunan, pullu vizual geyimləri (*skin*) satılan səthi bir oyun mühərriki elementinə enir.

[15] D.Hesmondhalgh, *The Cultural İndustries,* London: SAGE Publications, 2013.

[16] H.Jenkins, *Convergence Culture: Where Old and New Media Collide,* New York: New York University Press. 2006.

Nəticə

Azərbaycan xalça motivləri və *Sarı qız* obrazının rəqəmsal mühitdəki transformasiyasının təhlili göstərir ki, rəqəmsal rekonstruksiya birtərəfli bərpa prosesi deyil, milli simvolların yeni mədəniyyət kontekstində yenidən yaradılması və interpretasiyası prosesidir. Lev Manovich, Ernst Gombrich və Henri Jenkins`in nəzəriyyələri işığında aparılan bu araşdırma təsdiq edir ki, rəqəmsal media və xüsusilə metavers arxitekturası milli irsi qorumaq üçün unikal vizual platformalar təklif etsə də, simvolların ritual, fəlsəfi və sakral məzmununu qismən buxarlandırır. Əldə olunan elmi nəticələri bir neçə mühüm bənddə ümumiləşdirmək mümkündür:

1. *Semantik və Ontoloji Dəyişiklik:* Azərbaycan xalq inanclarında ritualların və bədii formaların mifik kökləri birbaşa kosmoqonik təsəvvürlərlə bağlıdır. Bu baxımdan xalça ornamentlərində qorunub saxlanılan mifik kodlar xalqın şüuraltı səviyyədə qoruyub saxladığı qədim kosmik nizamın vizual proyeksiyası kimi çıxış edir.[17] Ənənəvi mühitdə məlumat ötürən və kollektiv inanc sistemini tənzimləyən mifik kodlar və motivlər rəqəmsal mühitə daxil olduqdan sonra verilənlər bazasının (*database*) bir parçasına çevrilir. Proses zamanı simvolun *hekayə və mesaj ötürmə* (*narrativ*) funksiyası zəifləyir, *vizual dizayn elementi və estetik obyekt* funksiyası isə maksimallaşır.

[17] A.Bayramlı, *Azərbaycan mifologiyası və xalq inamları*, Bakı: Elm və Təhsil, 2018.

2. *Qloballaşma və Standartlaşma Riski:* Rəqəmsal rekonstruksiya zamanı milli elementlər çox vaxt qlobal oyun və vizual media sənayesinin (məsələn, *fantasy* estetikasının) qəliblərinə uyğunlaşdırılır. Bu isə simvolların spesifik lokal və regional xüsusiyyətlərini itirməsi və folklorun mənəvi sanbalından uzaqlaşaraq kommersiya məhsuluna (*gamification*) çevrilməsi riskini doğurur.

3. Yeniliyə Açıqlıq və Elmi İnteqrasiya: Bu risklərə baxmayaraq, rəqəmsal rekonstruksiya prosesinə tamamilə müqavimət göstərmək milli mədəniyyətin müasir dünyadan təcrid olunmasına gətirib çıxara bilər. Yerli elmi araşdırmaların dünya miqyaslı rəqəmsal trendlərdə təmsil olunması üçün bu texnologiyalara kor-koranə deyil, elmi-kritik yanaşma ilə adaptasiya olmaq zəruridir.

Son nəticə olaraq vurğulamaq lazımdır ki, milli simvolların rəqəmsal mühitdə səthi vizual verilənlər strukturuna çevrilməməsi və ya dekorativ loqo kimi qalmaması üçün rəqəmsal humanitar elmlər sahəsində yeni bir *Milli Yaddaş Siyasəti* formalaşdırılmalıdır. Xalça motivlərinin daşıdığı adlar və terminoloji baza sadəcə təsviri xarakter daşımır, onlar mifik təfəkkürün dil qatındakı qalıqlarıdır. Hər bir motivin adı fərqli bir mifik arxetipin və ya ayinin dil strukturundakı rezonansını əks etdirir.[18] Gələcəkdə qurulacaq rəqəmsal və virtual platformalarda (məsələn, Türk Dünyasının virtual model və layihələrində) vizual dizayn mühəndisliyi ilə folklorşünaslıq-mifologiya elmi paralel addımla-

[18] S.Yunusova,. *Azərbaycan folklorunda mifoloji obrazlar sistemi*, Bakı: Adiloğlu, 2008.

malıdır. Yalnız vizual formanın deyil, eyni zamanda motivlərin və obrazların arxasındakı fəlsəfi-semantik dərinliyin də rəqəmsal kodlara (*meta-verilənlərə*) inteqrasiya edildiyi *ağıllı rekonstruksiya* modellərinin tətbiqi mədəni irsimizin virtual gələcəkdə də öz orijinal kimliyini qorumasını təmin edə bilər.